# Ordumuzun peşəkarlığı

*İqtisadi inkişafa, yenilməz orduya sahib olan dövlətimizin bütün dünyaya bir ismarışı oldu: "Qarabağ Azərbaycandır!". Beləliklə, nəhəng dövlətlərin tələlərinə, erməni himayədarı olan bəzi siyasi fiqurların xain niyyətlərinə elə siyasət meydanında layiqli cavab verildi. Ölkə başçısı İlham Əliyev yüksək tribunalardan Azərbaycanın haqq işi uğrunda mübarizə aparanda xalqımız da yumruq kimi birləşib, bir amala kökləndi. Düşmən tərəfindən zəbt edilib talan olunan torpaqlarımızın azadlığını, xilası gününü gözlədik. Nəhayət, o gün yetişdi. 2020-ci il 27 sentyabr tarixində düşmənin bütün cəbhəboyu hücumuna layiqli cavab verildi. Doğma yurd uğrunda mücadilə başlandı. İllər əvvəl yuxu, xəyal kimi xatırladığımız torpaqlarımız azadlığına qovuşdu. Səbirsizliklə gözlədiyimiz müjdəli xəbərləri məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin dilindən eşitmək xalqımıza yeni ruh verdi. Addım-addım, kənd-kənd, şəhər-şəhər, oymaq-oymaq qovuşduq doğma yurdlara. Xatirələr çözələndi, ümid işıqları közərdi, arzular üzü Qarabağa sarı alovlandı. Hər yüksəkliyə sancılan Azərbaycan bayrağı çiçək açdı torpaqlarımızda. Bir gözümüz sevindi, o biri ağladı. Axı düşmən tapdağından azad edilən torpaqları igid oğullar qanları, canları bahasına xilas etmişdilər. Analar ağı demədi, igid oğul böyütdüyü üçün qürurlandı, şərəfli məqamda müqəddəslik qazanan şəhid anası adını ehtiramla daşıdılar.*

Bəli, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün ərzində başa çatdırıldı. Qüdrətli ordumuz işğalçı Ermənistanın 30 il ərzində qurduğu "yenilməz erməni ordusu" mifini darmadağın etdi. Azərbaycan əldə etdiyi zəfərlə bütün dünyaya öz qüdrətini və gücünü nümayiş etdirdi. Bütün bunların bünövrəsi, ilk addımı sentyabrda qoyuldu. Canını, qanını torpaqlarımızın azadlığı uğrunda fəda etmiş qəhrəman Vətən övladlarının, şəhidlərimizin, eləcə də terror qurbanı olan mülki vətəndaşlarımızın qisası döyüş meydanında alındı.

İkinci Qarabağ müharibəsi hərbi-siyasi qələbə ilə yanaşı, qlobal məkanda bir daha haqqın, ədalətin kimin tərəfində olduğunu göstərdi. Dövlətimiz yeni reallıqlar yaradaraq işğalçı Ermənistanı və ona havadarlıq edən dövlətləri həqiqət qarşısında aciz qoydu. Vətən müharibəsi zamanı ölkə başçısı İlham Əliyev diplomatik cəbhədə öz mübarizəsini uğurla davam etdirdi, 30-a yaxın beynəlxalq televiziya və media nümayəndələrinə geniş müsahibələr verdi. Ermənilər tərəfindən yayılan yanlış informasiyalar və Ermənistanın haqsız mövqeyi barədə ətraflı məlumat verən Prezident məhz bu vasitə ilə Azərbaycanın haqq səsini dünyaya yaydı.

Beləcə Zəfərə gedən yol sentyabrdan başladı. Dövlətimiz və xalqımız zəfər dastanını qızıl hərflərlə tarixə həkk etdi. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, müqəddəs bayrağımızı işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-nin Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınıb. Lakin sentyabrın qələbə dolu tarixi bununla bitmir. Vətən müharibəsindəki biabırçı məğlubiyyətindən nəticə çıxara bilməyən və Azərbaycan dövlətinin humanistliyindən istifadə edən Ermənistan 2022-ci ilin sentyabrında yenidən Qarabağda təxribatlar törətməyə başladı. 12-14 sentyabr tarixlərində baş verən silahlı toqquşma Vətən müharibəsindən sonra ilk genişmiqyaslı qarşıdurma kimi yadda qaldı. Ermənistan silahlı qüvvələri dövlət sərhədinin Vardenis rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan mövqelərini, həmçinin qeyd olunan mövqelərə təminat daşıyan 2 hərbi nəqliyyat vasitəsini hədəfə aldı. Azərbaycan Ordusunun bölmələri qarşı tərəfi susduraraq düşməni yerində otuzdurdu və silahlı təxribatın qarşısı alındı.

2023-cü ilin sentyabrı isə daha fərqli şəkildə tarixə yazıldı. Sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonunun ərazisindən keçən 58-ci kilometrliyində sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 43 saylı idarəsinin əməkdaşları həyatını itirdi. Elə həmin gün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "Kamaz" markalı nəqliyyat vasitəsi terror hadisəsinin baş verdiyi istiqamətdə hərəkət edərkən Xocavənd rayonunun Tağaverd kəndi ərazisində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşdü. Nəticədə DİN-in əməkdaşları hadisə yerində həlak oldular. Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində mövqeləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidən Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlar və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Buna görə Azərbaycan bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınaraq sıradan çıxarıldı. Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri məhv edildi. Cəmi 24 saatdan da az çəkən antiterror tədbirləri nəticəsində Qarabağdakı xunta rejimi təslim oldu, özünü buraxmaqla bağlı bəyanat verdi. Separatçı rejimin cinayətkar başçıları həbs olunaraq Bakıya gətirildi, ədalət mühakiməsinə təslim edildi. Uzun illərdən sonra Azərbaycanın suverenliyi bərpa olundu.

Bu antiterror tədbirləri Azərbaycanın suveren hüquqlarının bərpası və ölkə ərazisində təhlükəsizliyin təmin edilməsi üçün tarixi əhəmiyyət daşıyan mühüm hadisə idi. 19-20 sentyabrda reallaşan lokal xarakterli antiterror tədbirləri ilə torpaqlarımızın işğalına son qoyuldu. Düzdür, buna qədər 44 günlük müharibədə işğal altında olan torpaqlarımızın böyük bir qismi azad olunmuşdu. Lakin bu tarixi missiyanın tam yekunlaşması məhz antiterror tədbirləri ilə baş tutdu. İtkilərimiz oldu, şəhidlər verdik. Ərazilərimiz igid oğulların canı, qanı bahasına bütövləşdi. 2020-ci il 27 sentyabr tarixində başlayan torpaqlarımızın azadlığı uğrunda mübarizə 2023-cü il 19-20 sentyabr tarixində məntiqi sonluqla yekunlaşdı. Bu qələbə Azərbaycan tarixinin ən şərəfli və şanlı səhifələridir.



**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2024.- 19 sentyabr (№ 204).-